Kaspi.-2016.-8-10 oktyabr.-S.16.



**ZAFER DİRENİŞ**

## EŞQİN PIÇILTILARI ARASINDA

"Son baharım" dedim sənə bir payız axşamında
Hansı yöndən əssə də dəli fırtına
Qaranlıqlara gömülsəm də,
Ulduzların altında sənsiz ağlasam da
Doyumsuz baxışlarına məftun xəyallarım
Yaşamımın umudu olur çətinliklərə inad!

Laheydə kimsəsizliyə toxunur payız yarpağı
sovrulur adı silinmiş döngələrdə.
Həyəcanlı öpüşlərim düşər yadıma
Dəniz dalğalarında coşan ruhum dirilər
Alovlanar eşqin küllərinə gömülən sevdamız.

Uzaqlarda bir can dostum var - Firdevs Altındaş
köhnə vallarda parlayar səsi
Ürəyimin dərinliklərində əks olunar...
Bəstəsinin ahənginə yazılar taleyimin ağrısı.
Şərqim güllərin, çiçəklərin ən gözəli
Ağaran saçlarımdan illərin payızları süqut edir!

Xatırladınmı, əlim əlindəykən
Göy üzü nurluydu, işıqlıydı
Sənə toxunanda Ay bir başqaydı
Solan ümidlərim yaşıl-yaşıldı...
Həyatımın sonunda qara buludların ardında
İldırımlar parçalanmışdı qəzəblə, kinlə
Tökülən yağışlar altında yam-yaş dolaşırdıq.
Ömrə bəzək vuran eşqin pıçıltıları arasında!

Xatırladınmı?.

**Türkiyə türkcəsindən uyğunlaşdıran:**
**Təranə Musayeva**